23 dekabr 2014-cü ilə təyin edilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İradə Hacıyevanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 22 noyabr 2014-cü il tarixli, 06 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 23 noyabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü İradə Hacıyeva 23 dekabr 2014-cü ildə keçiriləcək bələdiyyə seçkilərində 84 saylı Füzuli seçki dairəsindən Böyük Bəhmənli bələdiyyəsi üzvlüyünə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İsmayılov Musa Burcubay oğlunun namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının qərarının ləğv edilməsi və namizəd kimi qeydə alınması barədə müvafiq qərar qəbul edilməsinə dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 22 noyabr 2014-cü il tarixli 06 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Mərkəzi Seçki Komissiyasının 12 avqust 2008-ci il tarixli, 11/53-2 saylı qərarı ilə təsdiq edilmiş (23 iyul 2010-cu il tarixli 15/58-6 saylı və 19 oktyabr 2012-ci il tarixli 5/16 saylı qərarları ilə dəyişikliklər edilmiş) Təlimatın tələblərinə uyğun və nəzərdə tutulan şikayətvermə müddətində verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Şikayətçi müraciətini onunla əsaslandırmışdır ki, 23 dekabr 2014-cü ilə təyin edilmiş bələdiyyə seçkilərində 84 saylı Füzuli seçki dairəsindən Böyük Bəhmənli bələdiyyəsi üzvlüyünə namizədliyini öz təşəbbüsü ilə irəli sürmüş, həmin bələdiyyə ərazisində namizədin müdafiəsi üçün nəzərdə tutulan sayda seçicilərin imzasını toplayaraq imza vərəqələri və ona əlavə edilmiş digər zəruri sənədləri DSK-ya təqdim etmiş, ancaq dairə seçki komissiyasının 17 noyabr 2014-cü il tarixli, 16/3 saylı qərarı ilə əsassız olaraq onun namizəd kimi qeydə alınmasından imtina edilmişdir.

Dairə seçki komissiyasının mübahisələndirilən qərarının çıxarılmasına əsas olmuş namizədliyin qeydə alınması üçün təqdim edilmiş sənədlər dairə seçki komissiyasından tələb olunaraq müvafiq araşdırma aparılıb rəy verilməsi üçün bələdiyyə seçkiləri ilə bağlı Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış işçi qrupuna təqdim olunmuşdur.

Dairə seçki komissiyası M.B.İsmayılovun bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 17 noyabr 2014-cü il tarixli, 16/3 saylı qərarını onunla əsaslandırmışdır ki, namizədin təqdim etdiyi imza vərəqəsində düzəliş edilmiş və bu barədə imza vərəqəsini təsdiq edən şəxs həmin düzəlişləri təsdiq etməmişdir.

Müraciət etmiş şəxsə araşdırma aparılması barədə məlumat verilmiş, ona şikayətlə bağlı əlavə sənəd və sübutları təqdim etmək hüququnun olması bildirilmiş və araşdırmada iştirak etməyə dəvət edilmişdir. Namizəd bildirmişdir ki, imza vərəqəsində texniki səhv olaraq "noyabr" sözünün əvəzinə "oktyabr" sözü yazılmış və həmin səhvi aradan qaldırmaq üçün dairə seçki komissiyasına müraciət edərək ona yenidən imza toplamaq üçün imza vərəqəsi verilməsini xahiş etsə də, DSK-dan bunun mümkün olmadığını bildirdikləri üçün, həmin düzəliş özü tərəfindən edilmişdir.

İşçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 23 noyabr 2014-cü il tarixli rəylər və protokoldan görünür ki, bələdiyyə üzvlüyünə namizədliyi təsdiq edilmiş M.B.İsmayılovun namizəd kimi qeydə alınması üçün təqdim etdiyi imza vərəqəsində olan seçici imzaları Seçki

Məcəlləsi ilə müəyyən edilmiş qaydalara uyğun toplanılmışdır. Namizədliyinin irəli sürülməsi təsdiq edilmiş şəxs tərəfindən toplanılmış 34 seçici imzasının hamısı etibarlı hesab edilmişdir. İmzaların verilməsi tarixində düzəlişlərin namizəd tərəfindən edilməsinə gəldikdə isə, dairə seçki komissiyasının təqdim etdiyi izahatda düzəlişlərin namizəd tərəfindən edildiyi bir daha təsdiqlənir. Etibarlı hesab edilən imzaların sayı həmin bələdiyyə üzrə namizədin qeydə alınması üçün kifayət etdiyindən və zəruri olan digər sənədlər Seçki Məcəlləsinin tələblərinə uyğun olduğundan onun namizəd kimi qeydə alınması üçün hüquqi əsaslar yaranmışdır.

Belə ki, Seçki Məcəlləsinin 215.1.5-ci maddəsinə əsasən əhalisi 4.999-dan çox, 9.999-dan az olan ərazidə bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmaq üçün namizədliyi irəli sürülmüş hər bir vətəndaş 30 etibarlı seçici imzası toplamalıdır. Böyük Bəhmənli bələdiyyəsinin əhatə etdiyi ərazidə əhalinin sayı Seçki Məcəlləsinin yuxarıda qeyd edilən maddəsi ilə müəyyən edilmiş say həddindədir.

Seçki Məcəlləsinin 60.4-cü maddəsinə görə imza vərəqələrində və ona əlavə edilmiş sənədlərdə səhvlər və pozuntular namizəd tərəfindən düzəlişlərin edilməsi yolu ilə aradan götürülə bilərsə, seçki komissiyası namizədi 24 saat müddətində bu haqda xəbərdar edir və onun tərəfindən müvafiq düzəlişlər edildikdən sonra namizədi qeydə alır. Dairə seçki komissiyası M.B.İsmayılovun namizəd kimi qeydə alınmasından imtinaya dair qərar qəbul edərkən həmin maddənin tələblərini nəzərə almamışdır.

Beləliklə, tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırma ilə dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi və şikayətin təmin edilməsi üçün hüquqi əsasların olması müəyyən edilmişdir.

Göstərilənlərə əsasən şikayət əsaslı olduğundan təmin edilməli, 84 saylı Füzuli seçki dairəsi dairə seçki komissiyasının M.B.İsmayılovun namizəd kimi Böyük Bəhmənli bələdiyyəsi üzvlüyünə namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 17 noyabr 2014-cü il tarixli, 16/3 saylı qərarı ləğv edilməli, o, həmin seçki dairəsindən bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 215.1.5-ci, 216.1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 1-7-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 84 saylı Füzuli seçki dairəsindən Böyük Bəhmənli bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İsmayılov Musa Burcubay oğlunun 22 noyabr 2014-cü il tarixli, 06 saylı şikayəti təmin edilsin, onun namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 17 noyabr 2014-cü il tarixli, 16/3 saylı qərarı ləğv edilsin.

2. 84 saylı Füzuli seçki dairəsindən Böyük Bəhmənli bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İsmayılov Musa Burcubay oğlu bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınsın.

3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü İradə Hacıyeva